

**Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, “Freedom House” hüquq müdafiə təşkilatı dünya ölkələrində internet azadlığı ilə bağlı növbəti illik reytinqini dərc edib və ölkəmizə 65 ölkə arasında 48-ci yeri verib. Bu təşkilatın Azərbaycana qarşı qərəzini hər kəs bilir. Onu da yaxşı bilirik ki, ümumən, qurumun hesabatları siyasi xarakter daşıyır.**

# “Freedom House” hər zaman Azərbaycana qarşı qərəzli mövqe tutub”

Ə.Amaşov qeyd edib ki, “Freedom House” internetin azad olmadığı ölkə kimi əhalisi 1 milyard 200 milyon nəfəri keçən Çini göstərir: “Təşkilatın reytinqində birincilik isə İslandiyaya məxsusdur. O İslandiyaya ki, əhalisinin sayı 300 mindən bir az artıqdır. Hələ mən ərazi barədə müqayisə aparmıram. Məsələyə sadə məntiqlə yanaşsaq, Çində hər bir halda internetlə bağlı problem İslandiyadan çox olmalıdır. Amma bunun önəmi yoxdur. Çünki məqsəd qərəzli olaraq Çini, belə demək mümkünsə, azadlıqsevməz ölkə kimi təqdim etməkdir”.

Ə.Amaşovun sözlərinə görə, “Freedom House” hesabat hazırlayarkən dünyada şəbəkə istifadəçilərinin 87 faizinin yaşadığı 65 ölkəni araşdırıb: “Yanaşma qəribədir. Görəsən, siyahıda birinci olan İslandiyanın payına neçə faiz düşür? Və ya ona düşən faiz imkan verirmi ki, ölkə birinci olsun?

Deməli, internetin 87 faizi dünyadakı 200-ə yaxın ölkədən 65-də cəmlənirsə, məntiqlə internetin azadlıqdan kənar mahiyyətini yerdə qalan ölkələrdə axtarmaq lazımdır. Təbii ki, niyyət safdırsa...

Azərbaycana keçməzdən öncə bildirim ki, “Freedom House” Gürcüstanı və Ermənistanı müvafiq olaraq 10 və 13-cü yerlərdə yerləşdirib. Bəli, təşkilat illərdir “ənənəsinə” sadiqlik nümayiş etdirir. Sən demə, Ermənistan internet azadlığına görə dünya liderlərindəndir, guya, dünyada 13-cü yeri tutur.

Azərbaycanda internet sahəsində hansısa xırda problem ola bilər. Bunu kimsə istisna etmir. Amma məsələ “Freedom House”nin iddia etdiyi kimi də deyil. Əksinə, ölkəmizdə internetin inkişafına ciddi önəm verilir. İnternet hüquqi münasibətlər sistemində özünə kifayət qədər yer tapıb. Ümumən, internet Azərbaycanın həyatına daxil olub. Təkcə “facebook” sosial şəbəkəsindən istifadə edənlərin sayı 2 milyona yaxındır.

Azərbaycanda internet informasiya seqmentinin mühüm hərəkətverici qüvvəsi sayılır. Əgər problemdən danışmaq istəyiriksə, bəli, deməliyik ki, bu gün ölkəmizdə internetin verdiyi imkanlardan sui-istifadə də var. Gündə bir yeni xəbər saytının adı ilə rastlaşırıq. Bəli, azadlıq kimi dəyərləndirilməli olmayan, azadlığı təhdid edən təhlükə budur.

Sonda bir daha bildirim ki, “Freedom House” hər zaman Azərbaycana qarşı qərəzli mövqe tutub. Qurum köhnə şablonlarını bu hesabatında da istifadə edib. Məsələyə belə yanaşma qətiyyən yolverilməzdir”.

***“Xalq qəzeti”***